*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 492-497*

https://doi.org/10.62837/2024.11.492

dos. **MİRZƏFƏROVA RAMİDA N.**
BSU
ramidam@gmail.com

# MÜASİR ƏDƏBİYYTDA "ÖLÜM" MÖVZUSU

**Açar sözlər: obraz, ölüm mövzusu, ikilik, zaman, yaddaş**
**Keywords: image, theme of death, duality, time, memory**
**Ключевые слова: образ, тема смерти, двойственность, время, память**

Ölüm anlayışı özündə dərin mənaları əks etdirir. Elə ölüm vardı ki, əbədidir. Elə ölüm vardır ki, yaşayaraq ölməkdİr. Dünyada ölümün hər rəngini məhz ədəbi nümünələr əks etdirir. Məşhur Azərbaycan yaziçısı-tənqidci Orxan Fikrətoğlunun "Ölü mətn" əsərində ölüm və ölümlə bağlı fəlsəfi fikirlər öz əksini tapır. Buradakı "Ölü mətn" bütöv Azərbaycan xalqının mətni kimi təsvir olunur.

Orxan Fikrətoğlunun "Ölü mətn" əsərində bioloji ölüm yox ideoloji, mənəvi ölüm, öz içində ölmək – ölməkdən çox mövcudluğunu itirməkdən gedir söhbət. Əsərdə sufizm aydın nəzərə çarpır. "Özü"-nü oxumağa çalışan və heç bunun fərqinə varmayan Ustad obrazı fərqli bədən, məkan, zaman, mövge və hətta düşüncədə dünyaya gəlir və bunların demək olar ki, hamısının sonu ölümlə bitir. Əsərdə mətin axtarışı o anlama gəlir ki, mətn dedikdə bütöv bir xalqın mövcudatı, yəni ən əvvəli və sonu, əsrlərdir gəldiyi qənaət və formalaşdığı ən son halını görürük.

Orxan Fikrətoğlunun "Ölü mətn" adlı post sufi janrında yazıldığı əsərində hər ölümün bir mətni var. Əsərin əvvəlində epiqrafında deyildiyi kimi "Tərki dünya olmaq insanların şərindən qurtarmaq deyil. Tərki dünya olmaq insanları öz şərindən qurtarmaqdı".

Zaman anlayışı "Ölü mətn" romanında Orxan Fikrətoğlu ənəvi yanaşmadan fərqli bir şəkildə göstərir. Belə ki, yazıçının fikrinə ğörə: "Vaxtı keçmişə, bu günə, gələcəyə bölmək olmaz. Çünki vaxt bütövdür. İnsanın bioloji vaxtı hansı dövrü yaşayırsa, ruhani və cismani vaxtı hansı sürətlə qocalıb azalırsa, onun təxmin etdiyi vaxt da həmin vaxtdır. Olan ancaq keçmişdir. Bu gün sənin əlində deyil, bu gün hələ olur. Və hər şey ola bilər. Sən bu olanları dəyişmək gücündə də deyilsən. Var olmaq, yaşamaq isə keçmişdə və keçmişlə ölçülür" [2,95].

Tarix, insan, duyğular təkrarlanır. Sanki hər xalq özü üçün yazılmış vahid bir mətnə əsasə yaşayır. Necə ki, bu xalqın mətni dəyişmir təkrarlanır, onun insanlarıda təkrarlanır sadəcə üzü, yaşı, yeri, zamanı dəyişir. Biri digərinin təkrarıdırsa, deməli, yeni heç nə yaranmır və nəyinsə artıq başlanğıcı və sonu varsa, dəyişmir, çevrilmirsə, deməli o artıq "ölmüşdür". Nəyinsə-istər canlı, istər cansız, istər sonlu, istər sonsuz varlığın öz mövcudluluğunu qoruması onun "canlı" olmasını təsdiq etmir. Sufizmə

görə əlində ətrafındakı hər şey sənsən, sən hər şeysən. Mətnin hər yeni sətrinə keçəndə hadisələr dəyişsə də sonluqda dəyişməyən "ölüm" olur. Çünki bir xalq, millət öz əsrlər boyu yazılmış mətnini dəyişmir son necə dəyişə bilər? Həmçinin romanın sonunda da görür ki, hər həyatdakı ölümün ortaq bir problemi var – sevgisizlik.

Əsər boyu yazıçı romanda insan konsepsiyasına mühüm yer ayırır. Belə ki, o yazır: "Hər bir insan oxunmamış mətndir. Hamının ömründə bir maraqlı nəsə var. Sən bu mətni oxumağa başlayanda, gördüyün insanın görüntüsünə yalanlar əlavə etməyə başlayırsan. Onu olduğu kimi deyil, qavradığın kimi görürsən. Sənə kim deyib axı, gərəksiz pıçıltıları, içindəki şübhə və sevgini, gəldiyin qənaəti həqiqət kimi qəbul edəsən? Sən də tamam deyilsən" [2,95].

Ustad balıqçı kimi dünyaya gələn mətndə varlığın bütövlüyünü dərk edən biri kimi, onu dərk etdiyinin zənn edən amma bunu sadəcə "bilən" əks qütblə görürük.

Biz Ustadla bağlı hekayələrlə "Ölü mətn"ə gətirib çıxaran səbəblərin nə olduğunun şahidi oluruq. Əsərdə milli kimlik məsələsi çox vurğulanır. Bir xalqın, hətta bir şəhərin, yəni Gəncənin iki övladı əsərdə göstərilir: İbrahim bəy və İsmayıl bəy. Vətəni tərk edib qaçan və sadəcə gözü maddiyatı görən bir adam kimi öldüyünu, Vətən övladı İbrahimi (Ustad) və sadə "vətəndaş" dan İsmayılı qarşı-qarşıya gətirildiyinin şahidi olduq.

Bunlar bir şəhərin, bir ölkənin nümayəndəsi olsalar da, onların idealları başqadır. İbrahim öz mətnini yazmağa çalışır, İsmayıl isə ona yazılana əməl edir. Əslində ikisi də var olmaq uğrunda mübarizə aparır, amma onların mübarizə üsulları çox fərqlidir. İbrahimin var olmaqla bağlı mübarizəsi İsmayıl bəyinkinin tam əksi bəşəri səciyyə daşıyır. İsmayıl bəyin isə məqsədi "olum və ya ölüm" arasındakı bu savaşda, nə olursa, olsun, ən pis yollara da əl atmalı olsa, qalib olmaq, yəni canını qurtarmaqdır.

İsmayıl bəyə ən kiçik yaşlarından atası hər zaman güclünün yanında olmağı öyrətmişdi. Onun üçün fərqi yox idi kim haqlıdır, əsas odur ki, kim güclüdür. İsmayıl bəy buna görə də ölkəsində hakimiyyətə olan sovet hakimiyyətini seçir. Bundan sonra sırf özü yaxşı yaşasın ölümdən xilas olsun deyə öz xalqının övladlarını öldürtdürür, sürgün edirdi. Hətta bu işdə hakimiyyət başında olanlardan qəddar hərəkət edir. Bir gün ölməyəcəkmiş kimi yaşayır.

İbrahim bəy isə Alman qoşunlarının tərkibində azərbaycanlıların azadlığı üçün vuruşur. Onun məqsədi xalqının azadlığıdır. O, birlik, bərabərlik, türklük, turançılıq, azərbaycançılıq, vətənpərvərlik mövqelərindən çıxış edirdi. Kürən İsmayıl və İbrahim bəy döyüş zamanı qarşılaşanda İbrahim bəy İsmayılı öldürmür, onun gözünü açmağa çalışır, amma onun bu mərhəmətinə İsmayıl xəyanət edir, geri qayıtdıqdan sonra İbrahim bəyin bütün sevdiklərini öldürür, hətta onun tərəfinə keçibmiş kimi edib İbrahimi öldürür.Amma İbrahim bəy onun nə edəcəyini bildiyi

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 11, 2024
Səh. 492-497

üçün İsmayılın silahına boş güllə qoydurur və bütün sovet hakimiyyətinə özünü ölü kimi göstərir. İsmayıl bu xəyanətinin əvəzində mükafat gözləyərkən inandığı rejim onu sürgünə göndərir. Müstəqillik qazanılandan sonra onlar rastlaşanda Gəncədə hamı İbrahimə hörmət edirdi, İsmayıl isə heç kimliyini də bəlli etmək istəmirdi, çünki bu xalq ona nifrət edirdi. Bu dəfə İsmayılı ölümlə bağlı fərqli düşüncələr qayğılandırırdı. Əvvəl ölməkdən qorxurdusa, indi öləndən sonra insanların onun üçün ağlamayacağından, hətta qəbrini mundarlayacaqlarından qorxurdu.

Əsərdə iki ziddiyatlı obraz verilib. Yazıcının sözləri ilə desək “Onlar ayrı-ayrı ideyaların əsgəri olsalar da, bir mətnin yazıydılar”.

Burada cahil də özü idi kamil də, qəhramanda da, xəyanətkar da çünki onlar bir “mətn”-in hərifləri idi, deməli, hər şey elə mətnin özü idi. Biz “Dədə” əhvalatı hissəsində “Kitabi-Dədə Qorqud”ın əksini görürük. Bu təsadüfi deyil türklərin ən qədim köklərini,ənənələrini əks etdirən ən möhtəşəm dastandır. Bu hissədə tək bir xalq deyil həttə bütöv bəşəriyyəti görə bilərik.

Əsərdəki Dədə obrazı ilə bağlı epizodlar “Kitabi-Dədə Qorqud” dun dekonstruksiyası səciyyəsi daşıyır. Burada düşmənlər el ağsaqqalı, müdrik Dədəni süni Dədə ilə əvəzləyirlər. Bu da Elin məhvinə gətirib çıxarır. Yəni bir xalq, yurd, el üçün vacib dan insanların ölümü təkcə bir ailəyə deyil, bütöv bir xalqa, yurda, elə bədbəxtlik gətirir.

Orxan Fikrətoğlunun “Ölü mətn” əsərində müxtəlif həyatlarda bir-birini əvəz edən baba-ata-oğul talelərini görürük. Bu bütöv olaraq bir milətin bir ip üzrə izlədiyi yolu təmsil edir. Şeyx əhvalatında əsl həqiqəti və düzgün cavabın kəlimələrə sığmadığını görürük. Varlığın həqiqəti və dərki o qədər alidir ki, onu söz ifadə edə bilməz, cavablar üçün öz içinə bax və bununla kainatı tapacaqsan çünkü yaradan hər şeyi bütün halında yaratdı və bütün mövcud aləm səndə cəmdir.

Əsərin mühüm bir hissəsi Şamaxılı Alməmməd kişinin və onun övladlarının əski əlifbanı yayması ilə bağlıdır. Bu yolda Alməmməd kişi həbs edilir, sonra öldürülür. Orxan Fikrətoğlu əsərdə Alməmməd kişinin taleyini oğlu Ərtoğrul və nəvəsi Səməd yaşamasını vurğulayır.

“Ölü mətn” romanında Orxan Fikrətoğlunun ən dəyərli fikirlərdən də biri insanın “təkrarsız olmalı” olduğudur. Yazıçı demək istəyir ki, sənin indiyə qədər dünyaya gələnlərdən bir fərqin olmalıdır, sən yeni olmalısan, yaşamın yeni olmalıdır ki, ölümün də yeni olsun:”Sən ənənədəsənsə, hamının yaşadığını təkrar edib yaşayırsansa və bunu ən düz yaşamaq hesab edirsənsə, deməli, sən təkrarsan. Sən bir dəfə artıq olmusan. Sən görünən görüntü belə deyilsən... Epizodik bir çalarsan. Kadra belə düşməmisən. Var olmağın bir ömrə belə yetməyib. Fikirlərin təkrardır. Ölümün belə bir neçə dəfə olub” [2,95].

Natiq Rəsulzadənin "Qardaş" əsərində ölüm digər əsərlərə nisbətən fərqlidir. Belə ki, burada iki qardaşın ölümündən bəhs edilir. İki əkiz qardaşların taleyinin eyni olduğunu, ikisinin də eyni gündə öləcəyini bir baxıcı xəbər verir. Amma

qardaşlardan biri Azad sətəlcəmdən daha əvvəl ölür və o gündən Fuadın da həyatı tamam dəyişir.

Fuad özünü Azad kimi görməyə başlayır, özunün Azad olduğunu düşünür, sanki Fuad ölür və Azad Fuadın bədənində yenidən doğulur. Öz həyət yoldaşını Maşanı tanımır, qardaşı kimi qumarla məşğul olur. İki ildən sonra qardaşı Azadla eyni gündə, onun kimi sətəlcəmdən ölür. Son anda Fuad olduğunu anlayır. Bununla belə sanki Azad da, Fuad da hər ikisi də biri öləndə digəri də ölmüş olur. Azad öləndə Fuad da ölmüş sayılırdı, çünki onda Fuada aid heç bir şey yox idi. Həmçinin Fuad öləndə də trad Azad yenidən ölmüş oldu. Çünki Fuad onu özündə yaşadırdı.

Natiq Rəsulzadə "Qardaş" əsərində əvvəl Azadın sonra Fuadın ruhi və zehni yox, sadəcə fiziki öldüyünü görürük. Yazıçı əvvəl kimin ölü, kimin həyatda qaldığını olduğunu zaman-zaman göstərir. Əvvəl şərin öldüyünü zənn etsək də birdən-birə xeyrin ölüb şərin onun yerinə keçdiyini görürük. Bu andan etibarən xeyir öz yerinə qayıtmaq üçün çalışır, bu mübarizəni çox aydın görməsəkdə hiss edirik.

Natiq Rəsulzadə iki qardaşın timsalında insanın öz içində çarpışan və birgə vardan xeyir və şəri görürük. Azad, obrazın adından da göründüyü kimi, insanın içində tutduğu şər, mənfi tərəf, basdırılmış hissəsini təmsil edir. Bu hissə insan heyvanı, tam "çılpaq" tərəfəni, zəifliyini və tamahın ortaya qoyur. Müəllif tarixən və bu gün müasir dövrümüzdə də baş verən, amma bizim görmədiyimiz hadisələri postmodernizm vasitəsilə əks etdirib.

Con Sommerfild "Ölmək asan deyil" əsərini Cek Londonun "Həyat eşqi" əsəri ilə müqayisə etmək olar. Çünki burada da qəhraman ölmək istəmir. Öləcəyini anlasa da, hətta tutunmağa çalışır, bütün həyatı gözlərinin önündən keçir, sevincli günlərini, sevdiyi qadınla tanış olduğu günləri xatırlayır: "Üstəlik, biz xəsisik, ömür boyu yaşamaqdan doymuruq; həttda indi, heç bir ümid yeri olmayanda, son həyat işartıları da əriyib gedəndən sonra, qana və sümüklərə ölüm sükutu çökhaçökdə, ac və ərköyün bağırsaqlar etiraz sələrini ucaldırlar, ən pisi budur ki, bir azdan oları gözləyən dəhşətli sonluqdan xəbərləri yoxdur" [3 ].

Qəhramanın daxili aləmini yazıçı belə vurqulayır: "Hiss edirdi ki, hələ sağdır, ancaq şüuru tam qayıtmadığı üçün ölümün uzaqda olmadığını ağlına gətirə bilmirdi. Bir onu bilirdi ki, içərisində nəsə baş verir. Qarnındakı ağrı kəskin deyildi, amma qəribə, dəhşətli və qorxulu idi. Elə bil, nə isə tərs, rezinvari, metalvari bir şey daxilində düyün salır və həmin düyün get – gedə böyüyürdü" [3 ].

Beləcə, həyat gözlərini yumur: "Mən öləndə dünya da mənimlə ölür" – bu, onun daxili inamı idi, indi o, dünyanı izləyir və anlayırdı ki, dünya ölənə oxşamır" [3].

Ancaq göründüyü kimi "Həyat eşqi"nin qəhramanından fərqli olaraq "Ölmək asan deyil"in qəhramanı sonda ölür.

**Доц. Мирзафарова Р.Н.**

**РЕЗЮМЕ**

**Тема смерти в современной литературе.**

Статья посвящена изучению темы смерти в художественных произведениях. В центре внимания - произведения Азербайджанских писателей XXI века, а также представителя Английской литературы. Духовная культура, многогранность художественных образов, психологизм, проблема времени является основным моментом в этой статье. Тема смерти связана в произведениях, прежде всего, с темой смысла жизни. Тема отношения человека к смерти в литературе проявляется не однозначно. У каждого писателя свое отношение к этой проблеме. У одних писателей смерть является главным образом, а у других главной темой произведения. Так, Азербайджанские писатели Орхан Фикрет оглу, Натиг Расулзаде по-разному раскрывают в своих произведениях тему смерти. Раскрытие этой темы достигается приемами литературных направлений. Английский писатель Джон Соммерфильд тоже раскрывают тему смерти, но через внутреннее состояние своего героя.

**Ass.prof. Mizafarova R.N.**

**SUMMARY**

**The theme of «death» in modern literature**

The article is devoted to the study of the theme of death in works of art. In the center of attention are the works of Azerbaijani writers of the XXI century, as well as a representative of English literature. Spiritual culture, the versatility of artistic images, psychologism, the problem of time are the main points in this article. The theme of death is connected in works, first of all, with the theme of the meaning of life. The theme of a person's attitude to death in literature is not unambiguous. Each writer has his own attitude to this problem. For some writers, death is primarily, while for others it is the main theme of the work. Thus, Azerbaijani writers Orkhan Fikret oglu, Natig Rasulzade reveal the theme of death in their works in different ways. The disclosure of this theme is achieved by the techniques of literary trends. English writer John Sommerfield also reveals the theme of death, but through the inner state of his hero.

**Dos.** Mirzəfərova R. N.

**Xülasə**

**Müasir ədəbiyyatda ölüm mövzusu**

Məqalə bədii əsərlərdə ölüm mövzusunun öyrənilməsinə həsr olunub. Əsas diqqət 21-ci əsr Azərbaycan yazıçılarının, eləcə də İngilis ədəbiyyatı nümayəndələrinin yaradıcılığına yönəlib. Mənəvi mədəniyyət, bədii obrazların çoxşaxəliliyi, psixologizm, zaman problemi bu yazıda əsas məqamlardır. Əsərlərdə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 492-497*

ölüm mövzusu, ilk növbədə, həyatın mənası mövzusu ilə bağlıdır. Ədəbiyyatda insanın ölümə münasibəti mövzusu aydın şəkildə özünü göstərmir. Bu problemə hər bir yazıçının öz münasibəti var. Bəzi yazıçılar üçün ölüm əsas mövzu, bəziləri üçün isə əsərin əsas mövzusudur. Belə ki, Azərbaycan yazıçıları Orxan Fikrət oğlu və Natiq Rəsulzadə öz əsərlərində ölüm mövzusunu müxtəlif cür açır. Bu mövzunun açıqlanması ədəbi üsullardan istifadə etməklə həyata keçirilir. İngilis yazıçısı Con Sommerfield də ölüm mövzusunu, ancaq qəhrəmanının daxili vəziyyətini araşdırır.

**İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT:**

1. Natiq Rəsulzadə "Qardaş". https://www.azadliq.org/a/3538663.html
2. Orxan Fikrətoğlunun "Ölü mətn". Bakı, Qanun nəşriyyatı,2013
3. https://kayzen.az/blog/edebiyyat/21367/%C3%B6lm%C9%99k-asan-deyil-%7C-con-sommerfild.html

**Rəyçi: Dos. Tairov V.**